# Ədəbi və əbədi məktəb

100 il bundan əvvəl ilk nömrəsi çıxan "Molla Nəsrəddin" jurnalı 25 illik fəaliyyəti dövründə xalqımızın maarifləndirilməsi, ictimai-siyasi hadisələrdən baş çıxararaq öz hüquqlarını dərk etməsi, törədilən hazırlıqların aradan qaldırılması üçün çox iş görmüşdür. Azərbaycan mətbuatında satirik jurnalistikanın inkişaf etdirilməsində, bu sahədə ibrətli ənənələrin yaranmasında jurnalın əhəmiyyətli rolu danılmazdır. Maarifpərvər, vətənpərvər ustad yazıçı Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr olunan jurnalın ətrafına görkəmli jurnalistlər, şair və yazıçılar, siyasi xadimlər toplanmış və onlar təzyiq və hədələrə baxmayaraq müqəddəs missiyanı sədaqətlə yerinə yetirmişlər.

"Molla Nəsrəddin" jurnalı əbədi və ədəbi məktəbdir. Bu məktəbdən hər zaman öyrənmək, onun yaratdığı ənənələri davam etdirmək bütün dövrlər üçün olduqca faydalıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin "Molla Nəsrəddin" jurnalının 100 illik yubileyinin qeyd edilməsi haqqında "23 yanvar 2006-cı il" tarixli sərəncamına uyğun olaraq respublikamızın hər yerində olduğu kimi Astara rayonunun mədəniyyət müəssisələrində də jurnalın yubileyi ilə bağlı maraqlı tədbirlər keçirilir.

Astara rayon mərkəzi kitabxanasında "Molla Nəsrəddin" jurnalı xalqımızın mənəviyyat ensiklopediyasıdır" mövzusunda keçirilən elmi-praktik konfrans bu mənada xüsusi maraq doğurur.

Konfrans iştirakçıları əvvəlcə kitabxanada düzəldilmiş "Molla Nəsrəddin-100" stendinə baxmış, bu sənədlərlə, şəkillərlə tanış olmuşlar.

Konfransı giriş sözü ilə Astara Rayon Mədəniyyət və Turizm Şöbəsinin inspektoru, YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının həqiqi üzvü Əfqan Şəfiyev açmış, jurnalın fəaliyyətinin əsas istiqamətlərini qısaca təhlil etmişdir.

Astara Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Nazim Fərəməzov "Molla Nəsrəddin" jurnalı xalqımızın mənəviyyat abidəsidir", "Astara" qəzetinin baş redaktoru, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Sakitağa Kərimov "Molla Nəsrəddin" jurnalı Azərbaycan jurnalistikası üçün bir məktəbdir", Astara şəhər 1 saylı orta məktəbin ədəbiyyat müəllimi Zümrüd Ərçəyeva "Molla Nəsrəddin" jurnalında təlim və tərbiyə məsələləri" mövzusunda məruzələr etmişlər. Məruzələrdə jurnalın fəaliyyət dövründən, ideya və mübarizə istiqamətlərindən, Azərbaycanın mətbuat tarixindəki rolundan, yaratdığı ənənələrindən, təlim və tərbiyə məsələləri ilə bağlı gördüyü dəyərli işlərdən, həmçinin, Cəlil Məmmədquluzadənin və jurnalın ətrafında toplanmış şair və yazıçıların böyük xidmətlərindən söhbət açılmışdır.

Şahin FƏRƏMƏZOV

**Medeni-maarif.-2019.-№6.-S.34**